AZƏRBAYCAN ORDUSU

# Silahlı Qüvvələrin Hərbi Akademiyası: fəaliyyəti, Vətən müharibəsində iştirakı

**Polkovnik Telman ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının fakültə rəisi**



*Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra onun xarici və daxili siyasətinin prioritet istiqamətlərindən biri havadarlarının siyasi, iqtisadi və hərbi yardımlarından istifadə edən Ermənistanın təcavüzü nəticəsində pozulan ərazi bütövlüyünün bərpa edilməsi idi.*

Azərbaycan Respublikası Prezidentinin 20 fevral 1999-cu il tarixli Fərmanı ilə yaradılan Silahlı Qüvvələrin Hərbi Akademiyası həmişə ordu quruculuğunda yaxından iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının vəzifələrinə nəzəri-metodoloji, pedaqoji-metodiki işlərin aparılması da əlavə edilərək, tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsi statusu verilib. Bununla da ali təhsilin magistratura və adyunktura (doktorantura) səviyyələrində hərbi elmi kadr hazırlığında Hərbi Akademiyanın rolu artırılmışdır.

Son illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi-elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, hərbi sahədə elmi tədqiqatların aparılmasını və s. təmin etmək məqsədilə Silahlı Qüvvələrin Hərbi Akademiyasında fəaliyyət daha yüksək səviyyədə davam etdirilir.

Akademiya rəisinin təşəbbüsü ilə Silahlı Qüvvələrin Hərbi Akademiyasında 2015-ci ildən Briqadanın Əməliyyat Bölmə rəislərinin və Motoatıcı Tabor komandirlərinin təkmilləşdirilməsi kursları təşkil olunub.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının qarşısında qoyulan əsas vəzifələrdən biri də dövlət orqanlarında çalışan vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsinin təşkil edilməsidir. Bu məqsədlə, Starteji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda xarici siyasət və milli təhlükəsizliyin əsasları, strategiya və müdafiə planlaşdırmasının əsasları, müdafiə resurslarının idarə edilməsinin əsasları və dövlət müdafiəsinin idarə edilməsi modulları tədris olunur.

Akademik Kursda mühazirələr Milli Məclisin, nazirliklərin və dövlət komitələrinin, ali təhsil müəssisələrinin aparıcı mütəxəssisləri, xarici dövlətlərin müdafiə və təhlükəsizlik sahəsində çalışan ekspertləri tərəfindən tədris olunur. Akademik Kursun tədris proqramına müvafiq olaraq, praktiki məşğələlər güc nazirliklərinin hərbi hissələrində, xüsusi təyinatlı təhsil müəssisələrində, strateji əhəmiyyətli sənaye müəssisələrində və dövlət təşkilatlarında təşkil edilir və keçirilir. Bu praktiki məşğələlər dinləyicilərin respublikanın hərbi və sənaye potensialı haqqında təsəvvürlərinin genişlənməsində mühüm rol oynayır.

Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun fəaliyyətinin əsas istiqamətlərindən biri də xarici dövlətlərin hərbi təhsil müəssisələri ilə əməkdaşlıqdır. Belə ki, NATO-nun tərəfdaş ölkələrdə həyata keçirdiyi "Hərbi Təhsilin Genişləndirilməsi Proqramı" (DEEP) respublikamızda ilk dəfə Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda tətbiq edilib, dinləyicilər dövlət müdafiəsinin və təhlükəsizliyinin təmin olunmasında qiymətli təcrübə qazanıblar.

Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun beynəlxalq əməkdaşlığının daha bir istiqaməti xarici dövlətlərin hərbi qulluqçularının Akademik Kursda təhsil almasıdır. Belə ki, Akademik Kursun fəaliyyət göstərdiyi müddətdə Türkiyə Respublikası, Pakistan İslam Respublikası, Əfqanıstan İslam Respublikası, Ruminiya Respublikası Silahlı Qüvvələrinin zabitləri akademik kursda təhsil alıblar.

2014-cü ildən Müdafiə nazirinin göstərişinə əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsil alan hərbi diplomatların hazırlığı prosesinin təkmilləşdirilməsi istiqamətində davamlı işlər həyata keçirilir.

Son illərdə Silahlı Qüvvələrdə hərb elminin də inkişafına olan diqqət və qayğı artmaqdadır. Belə ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi təhsil sisteminin inkişaf etdirilməsi, yüksək ixtisaslı hərbi elmi və elmi-pedaqoji kadrların hazırlanması məqsədilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında 2014-cü ildən etibarən adyunktura fəaliyyətə başlayıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2014-cü il tarixli Qərarı ilə Azərbaycan Respublikasının Hərbi Akademiyası "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların siyahısı"na əlavə olunub.

2015-ci ildə ilk dəfə Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunkturasına fəlsəfə doktoru proqramı üzrə - 12, elmlər doktoru proqramı üzrə - 4 adyunkt və dissertant qəbul edilib. Adyunkturada təkcə Müdafiə Nazirliyinin deyil, digər güc strukturlarının və təşkilatların əməkdaşları da təhsil alırlar. 2015-ci ildə Hərbi Akademiyada iki elmi jurnal - "Milli təhlükəsizlik və hərbi elmlər" elmi-praktik jurnalı, "Hərbi icmal" elmi əsərlər toplusu təsis edildi.

Hərbi Akademiyada respublika və beynəlxalq miqyasda təhsil və elm sahələri üzrə təcrübə daim öyrənilir və bu sahələrdə əməkdaşlıq fəaliyyətlərinin gücləndirilməsi məqsədilə müvafiq dövlət qurumları ilə müqavilələr, həmçinin Azərbaycan Milli Elmlər Akademiyası ilə elmi-texniki və təhsil sahələrində birgə əməkdaşlığa dair memorandum imzalandı.

Memorandumda Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması və onun müasir təhdid və təhlükələrə cavab verə biləcək hərbi potensiala malik olması istiqamətində birgə elmi-tədqiqat işlərinin aparılması, hərbi təhsil sistemində qabaqcıl elmi nailiyyətlərin tətbiq edilməsi, birgə beynəlxalq və regional elmi konfransların keçirilməsi, eləcə də müdafiə texnologiyaları sahəsində müştərək fəaliyyət göstərilməsi nəzərdə tutulub.

Ordu quruculuğunda yüksək səviyyədə iştirak edən Hərbi Akademiyanın şəxsi heyəti Vətən müharibəsində dövlətə, dövlətçiliyə, Hərbi anda sədaqətlə, Vətənə sevgiylə iştirak etdi - 34 zabit, 16 dinləyici və 2 gizir, 1 mülki şəxs müharibə iştirakçısı oldu.

2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda Ermənistan silahlı birləşmələrinin təxribatları regionda hərbi-siyasi vəziyyəti gərginləşdirdi və bu istər Ermənistan-Azərbaycan dövlət sərhədində, istərsə də münaqişə zonasındakı təmas xəttində hərbi əməliyyatların başlanmasına səbəb oldu.

2020-ci il sentyabrın 27-də Ermənistan hərbi təxribat törədərək atəşkəsi pozdu və təmas xəttində Azərbaycan Ordusunun mövqelərinə hücum etdi. Hücumun qarşısı qətiyyətlə alındı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı - Vətən müharibəsi başladı.

Müharibədə rəşadətli ordumuz düşmənin yüzlərlə hərbi arsenalını məhv etdi, ərazilərimiz düşmən işğalından azad olundu. Nəticədə regionun yeni geosiyasi reallığının formalaşmasına müvəffəq oldu.

Əsgər və zabitlərimizin şücaətini Azərbaycan Prezidenti İlham Əliyev belə dəyərləndirdi: "Təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular..."...

Vətən müharibəsində qələbənin tarixi əhəmiyyətinə toxunan ölkə Prezidenti çıxışlarının birində qeyd etdi ki, "...bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə döyüş təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib".

Şübhəsiz, böyük tarixi nailiyyət kimi xarakterizə edilən bu qələbə hazırda dünyanın bir sıra ölkələrinin hərbi qərargahlarında ciddi müzakirə olunmaqdadır. Hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimizin yüksək peşəkarlığını rusiyalı hərbi ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko belə dəyərləndirib: "Azərbaycan Ordusu tərəfindən döyüş əməliyyatları zamanı müasir silahların, PUA-ların, yüksək dəqiqlikli texnologiyaların istifadəsi aparıcı ölkələrin baş qərargahları tərəfindən öyrənilir". Onun sözlərinə görə, dünyada belə bir nümunə olmayıb ki, bir ordu digəri ilə döyüşərkən bu qədər yüksək dəqiqlikli silahlardan istifadə etsin. Zərbə PUA-larının istifadəsinin miqyasına və intensivliyinə görə bu, dünyada ilk belə haldır".

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi uğurlu əks-hücüm əməliyyatlarının gedişi və istifadə olunan silahların effektivliyi Pentaqon tərəfindən də təhlil olunur. ABŞ Quru Qoşunlarının Baş Qərargah rəisi general Ceyms Makkonvil Azərbaycan Ordusunun pilotsuz uçuş aparatlarından uğurla istifadə etməsini misal göstərib. Onun sözlərinə görə, "Qarabağda pilotsuz uçuş aparatlarının aktiv istifadə olunması ABŞ Ordusunun, xüsusən, hava hücumundan müdafiə sisteminin təkmilləşdirilməsinin vacibliyini ortaya qoyub. Qarabağdakı döyüşlər, digər yerlərdə gedən döyüşlər gələcək müharibələrdə ölümcül PUA-larla üzbəüz gələcəyimizə dəlalət edir".

Müharibə dövründə Azərbaycanın bütün dövlət strukturları, xüsusilə də Silahlı Qüvvələri öz fəaliyyətini müharibənin tələbləri səviyyəsində qurdular və düşmən üzərində qələbənin əldə edilməsi üçün zəruri addımları atdılar. Qələbənin əldə edilməsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının şəxsi heyəti də böyük vətənpərvərlik duyğularıyla, böyük mənəvi kamilliklə iştirak etdi.

Vətən müharibəsi dövründə Silahlı Qüvvələrin Hərbi Akademiyasının şəxsi heyəti həm cəbhədə hərbi əməliyyatlarda iştirak etdi, həm də zabit kadrlarının hazırlanması istiqamətində fəaliyyətini davam etdirdi. Torpaqlarımızın işğaldan azad edilməsində iştirak edən və xüsusi fərqlənən hərbi qulluqçular Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə orden və medallarla mükafatlandırıldı. Mükafatlandırılan hərbi qulluqçular arasında Hərbi Akademiyanın rəisi də var. O, "Azərbaycan Bayrağı Ordeni" ilə təltif edilib.

Əməliyyatlarda iştirak edənlərin sırasında Hərbi Akademiyanın yüzlərlə məzun zabiti Azərbaycan Respublikasının Prezidenti tərəfindən müxtəlif orden və medallarla təltif olunmuşlar.

2014-cü ildən etibarən Hərbi Akademiyada tədris prosesinin təkmilləşdirilməsi, inkişafı və müasir təhsil sisteminə tam uyğunlaşdırılması ən mühüm vəzifə kimi qarşıya qoyulub. Bununla bağlı Hərbi Akademiyada təhsil alan dinləyicilərin təhsil hüququnu tam təmin etməklə yanaşı, milli təhsil konsepsiyasının müddəalarının gerçəkləşdirilməsi və hərbi təhsil sistemində aparılan islahatların sürətləndirilməsi qarşıda duran ən mühüm vəzifələrə çevrilir. Bu illərdə hərbi kadrların müasir tələblər səviyyəsində hazırlanmasının təmin edilməsi və hərbi təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyinin artırılması yolunda təhsil ocağında həyata keçirilən magistratura təhsili böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə, zabitlərin ustalıqlarını artırmaları istiqamətində onlar tərəfindən qoşunların əməliyyat-taktiki fəaliyyətlərinin öyrənilməsi və praktik olaraq məşq etdirilməsi, həmçinin xarici dil, humanitar və milli təhlükəsizlik istiqamətli mövzuların tədrisi Hərbi Akademiyada tətbiq olunan təhsil prosesinin əsasını təşkil edir. Eyni zamanda, təcrübəli professor-müəllim heyətinin akademiyada məşğələləri tədris etməsi daha yüksək nəticələrə nail olmağa imkan yaradır. Xalqımızın adət-ənənələrini, milli mentalitetini və digər önəmli keyfiyyətlərini nəzərə alaraq, bu gün Azərbaycan Ordusunda xidmət edən zabitlərimizin dərin biliyə, təcrübəyə, yüksək əxlaqi-mədəni və mənəvi keyfiyyətlərə malik olması məsələləri də Hərbi Akademiyanın rəhbərliyinin həmişə diqqət mərkəzində olub.

Bü gün əminliklə qeyd etmək olar ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün müasir tələblərə cavab verən ali hərbi təhsilli komandir və qərargah zabitlərinin hazırlanması, hərb elminin təşkili və inkişaf etdirilməsi, ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Silahlı Qüvvələrlə mülki dövlət qurumlarının birgə fəaliyyətinin təşkili məsələləri Hərbi Akademiyanın fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən olunub, dövlət, dövlətçilik, ordu quruculuğu və milli təhlükəsizliyimizin təmin olunması naminə Hərbi Akademiyanın fəaliyyəti bu istiqamətdə davam edəcək.

Vətən müharibəsində qazanılan zəfər Silahlı Qüvvələrdə kadr hazırlığı prosesinin daha yüksək səviyyədə davam etdiriləcəyində stimul olacaqdır.